RƏSUL AĞAYEV
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əyani aspirantı*

# AZƏRBAYCAN RESPUBLIKASININ NEFT STRATEGIYASI VƏ AZƏRBAYCAN RESPUBLIKASI DÖVLƏT NEFT ŞIRKƏTININ FƏALIYYƏTI (1992-2008-ci illər)

Azərbaycan dünyada neftçıxarma üzrə liderlərdən biri kimi tanınmış, maddi və mənəvi sərvətlərlə zəngin və neftçıxarma sahəsində ən qədim təcrübəyə malik olan bir ölkədir. 1848-ci ildə dünyada ilk dəfə olaraq Bibiheybətdə texniki üsulla dünyada ilk dəfə quyu qazıldı. Bu ABŞ-da Pensilvaniya ştatında ilk quyunun qazılmasından 11 il əvvəl baş vermişdi.[1, s.584; 10, s.101, 120; 15, s.65-65] 1901-ci ildə Azərbaycan 11,5 mln. ton neft hasil edərək dünyada birinci yerə çıxmışdı. ABŞ-da həmin ildə 9,1 mln. ton neft hasil edilmişdi.[18, s.53-54; 27, s.38-39; 45] 1941-ci ildə Azərbaycanın neft hasilatı tarixində maksimum miqdarda - 23,5 mln. ton neft çıxarılmışdır və bu da bütün keçmiş Sovetlər Birliyi neftinin 71,4 %-ni təşkil etmişdir.[23, s.164, 167; 28, s.57-58; 46] Belə yüksək hasilat SSRİ-nin İkinci dünya müharibəsindəki qələbəsini təmin etmiş, ölkə iqtisadiyyatının qarşısında duran bir çox məsələlərin həllində neftin xüsusi rolunu daha da artırmışdır. Bir daha 1965-ci ildə 21,6 milyon ton neft hasilatı maksimumu əldə edən Azərbaycan Neft Sənayesində 1967-ci ildən başlayaraq neft hasilatında durmadan azalma baş verir.[53; 54] Neft hasilatında bu eniş 1997-ci ilə qədər davam etmişdir. Həmin ildə cəmi 9,022 mln. ton neft hasil olunmuşdur.[21, s.138] Bundan sonra isə neft hasilatında yüksəliş dövrü başlanmış və 2006-cı ildə yeni neft hasilatı maksimumuna nail olunmuşdur: bu ildə 32,5 mln. ton neft hasil olunmuşdur.[34, s.6, 8] 2007-ci ildə 42,8 mln. ton [38, s.8-9] və 2008-ci ildə 44,5 mln. ton neft hasil olunmuşdur.[58] 2009-cü ildə isə neft hasilatının 6% artaraq 47 mln. tona çatacağı gözlənilir.[57]

XX əsr ərzində və XXI əsrin əvvəllərində Azərbaycanda neft hasilatının dinamikasını aşağıdakı cədvəllərdən daha aydın görmək olar:

| İllər | Neft hasilatı (milyon tonla) | İllər | Neft hasilatı (milyon tonla) |
|---|---|---|---|
| 1901 | 11,0 | 1989 | 13,2 |
| 1913 | 7,7 | 1990 | 12,5 |
| 1920 | 2,9 | 1991 | 11,9 |
| 1921 | 2,1 | 1992 | 11,1 |
| 1935 | 19,4 | 1993 | 10,3 |
| 1940 | 22,2 | 1994 | 9,7 |
| 1941 | 23,5 | 1995 | 9,2 |
| 1942 | 15,7 | 1996 | 9,1 |
| 1943 | 12,7 | 1997 | 9,0 |
| 1944 | 11,8 | 1998 | 11,4 |
| 1945 | 11,5 | 1999 | 13,9 |
| 1958 | 16,5 | 2000 | 14,1 |
| 1960 | 17,8 | 2001 | 15,0 |
| 1965 | 21,6 | 2002 | 15,4 |
| 1970 | 20,2 | 2003 | 15,5 |
| 1975 | 17,2 | 2004 | 15,6 |
| 1980 | 14,7 | 2005 | 22,4 |
| 1985 | 13,1 | 2006 | 32,5 |
| 1986 | 13,3 | 2007 | 42,8 |

| | | | |
|---|---|---|---|
| 1987 | 14,3 | 2008 | 44,5 |
| 1988 | 13,7 | 2009 | 47,0* |

(Bu cədvəllər *Azərbaycan Respublikası Dövlət Neft Şirkəti. Fəaliyyəti haqqında Hesabat – 2006", Bakı, 2007. səh.6, 8; Muradalieva G.B. «Кров Земная – Нефть Азербайджана и История», Книга 1.,Баку, 2005. səh.18, 38, 118, 167,169, 171, 174, 176,179.; Алиев И. Г. «Каспийская нефть Азербайджана», М.: «Известия», 2003. səh.138-139, 146.; Sagers J. Matthew, 'The Oil Industry in the Southern-Tier Former Soviet republics' // Post-Soviet Geography 35, No 5, 1994. səh.284.; "BP Statistical Review of World Energy, June 2008". © BP p.l.c. 2008, pp.8-9.; http://www.ngv.ru/article/ aspx?articleID=21658; http://www.ngv.ru/magazin/view/hsql?id=3111&mid=120* və *http://www.interfax.az/az/index.php?option=com content&task=view&id=31170&Itemid=9* İnternet sayt məlumatları əsasında hazırlanmışdır.)

* Neft hasilatının 2009-cu ildə bu qədər olcağı gözlənilir.

Hələ Sovet İmperiyası süqut etmədən əvvəl Qərbin iri neft şirkətləri Xəzər dənizinin və xüsusi ilə də Azərbaycanın karbohidrogen ehtiayatlarına maraq göstərməyə başladılar. 1989-cu ilin may ayında Böyük Britaniyanın müstəqil neft şirkəti olan, baş qərargahı Şotlandiyanın Aberdin şəhərində yerləşən və açıq tipli səhmdar cəmiyyəti kimi fəaliyyət göstərən "Remko Enerci Pablik Limited Kompani"-nin ("Ramco Energy Plc" ingilis dilində – *Ağayev.R*) sədri və icraçı direktoru Stiv Remp Azərbaycana səfər etdi.[19, s.92; 20, s.21; 29; 31; 32, 10 oktyabr 1992; 47; 49] Bundan sonra Azərbaycan nefti ilə bağlı danışıqlar başlandı. Respublikamızın xarici şirkətlərlə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması yolunda atılmış əsas addımlardan biri 1992-ci il sentyabr ayının 13-də prezident Əbülfəz Elçibəyin "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yaradılması haqqında" verdiyi 200 saylı fərman oldu. [7, s.398-399; 16, s.119] Bu fərmana əsasən «Respublikanın neft sərvətlərindən istifadəni vahid dövlət siyasəti əsasında həyatat keçirmək, neft sənayesinin idarəetmə struktrunu təkmilləşdirmək, neftçıxarma və neft emalı müəssisələrinin istehsal gücündən istifadənin səmərəliliyini artırmaq hesabına yanacaq-enerji kompleksinin inkişafını təmin etmək» məqsədi ilə "Azərneft" Dövlət Konserninin və "Azərnefkimya" İstehsalat Birliyininin bazasında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) yaradılmışdır.[39] Azərbaycan Respublikası prezidentinin 14 noyabr 1992-ci il tarixli, 312 saylı fərmanı ilə "ARDNŞ"-in Nizamnaməsi təsdiq edildi.[40; 41] Nizamnaməyə əsasən "ARDNŞ" - müstəqil istehsalat–təsərrüfat kompleksi kimi fəaliyyət göstərərək, geoloji-axtarış və kəşfiyyat işlərini, quru və dəniz də daxil olmaqla Azərbaycan Respublikasının bütün ərazisində neft və qaz yataqlarının hazırlanmasını, işlənilməsini, neftin, qazın, kondensatın hasilatını, onların emalını, nəql edilməsini, neftin, qazın, kondensatın və onlardan alınan məhsulların satışı, eləcə də istehsal və qeyri-istehsal təyinatlı obyektlərin tikintisini, təmirini, istehsalatın, əmək kollektivlərinin tələbatını təmin etmək üçün maşınqayırma, tikinti sənayesi məhsullarının, xalq istehlakı mallarının, digər məhsulların və xidmətlərin istehsalını həyata keçirməli idi.

Ümumiyyətlə, ayrı-ayrı vaxtlarda Azərbaycanın neft sənayesini özündə birləşdirən Azərneft birləşdirdiyi və idarə etdiyi müəssisələrin xüsusiyyətindən asılı olaraq İttifaq əhəmiyyətli trest və ya birlik kimi müxtəlif ittifaq və respublika təşkilatlarına (Azərbaycan SSR Xalq Komissarları Soveti, SSRİ Ali Xalq Təsərrüfatı Şurası, SSRİ Ağır Sənaye Nazirliyi, Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası) tabe olmuş və "Azərneftkomitə", "Azərneftkombinat" (sonralar "Azərneft", "Azərneftzavodlar" və "Azərneftmaşın-

qayırma" birliklərinə ayrılmış), "Azərneftçıxarma" Birliyi və s. adlanmışdır. Azərneftin əsasında Azərbaycan SSR Neft Sənayesi Nazirliyi (1954-1959), Azərbaycan SSR Neftçıxarma Sənayesi Nazirliyi (1965-1970) yaradılmışdır. 1970-ci ilin avqustunda yenidən "Azərneft" adlandırılmışdır.[39]

Azərbaycan nefti ilə bağlı Qərb dövlətlərinin iri neft şirkətləri ilə 1989-cu ildən başlayan və 1993-cü ilin ortalarına qədər davam edən danışıqlar Azərbaycan üçün əlverişli olmayan sazişlərə gətirib çıxardı. Eyni zamanda, 1993-cü ilin ortalarında ölkədə çox gərgin ictimai, siyasi və iqtisadi vəziyyət yaranmışdı. Ölkəni bu uzrumdan Heydər Əliyevin yenidən siyasət meydanına çıxması xilas etdi. Azərbaycan iqtidarı H.Əliyevi Bakıya dəvət etdi. 1993-cü il iyun ayının 9-da Bakıya gələn H.Əliyev iyun ayının 15-də Ali Sovetin sədri seçildi.[4, s.78-79; 11, s.405; 14, s.64] Beləliklə, H.Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra Azərbaycanın dəqiq iqtisadi konsepsiyası formalaşdırıldı. Bu konsepsiyaya onun tərkib hissələrindən biri kimi neft sənayesinin inkişafı – neft yataqlarının axtarışı və kəşfi, neftin hasilatı və emalı, eləcə də cəmiyyətin demokratikləşdirilməsi daxil idi və bu da nəticə etibarilə Azərbaycan Respublikasının dövlət siyasətini müəyyən edirdi. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni dövlət neft strategiyası hazırlandı və müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Bu, Azərbaycan Neft Sənayesində yeni eranın başlanması idi.[24, 31 avqust 2001]

İlk addım olaraq, H.Əliyev müqavilə şərtlərinin Respublika üçün sərfəli olmadığını və imzalandığı təqdirdə ölkəyə ciddi iqtisadi ziyan vuracağını başa düşərək 1993-cü il iyun ayının 21-nə imzalanması nəzərdə tutulan müqaviləni imzalamaqdan imtina etdi və onun imzalanmasını müvəqqəti təxirə saldı.[2, s.40; 5, s.67, 206; 9, s.218-219; 33, 4 avqust 1993] Bunun ardınca ARDNŞ-in strukturunda bir sıra dəyişikliklər edildi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1994-cü il tarixli ARDNŞ-nin strukturunun təkmilləşdirilməsi haqqında 50 saylı Sərəncamına əsasən Dövlət Neft Şirkətinin strukturunda Dənizdə və Quruda Neft və Qazçıxarma İstehsalat Birlikləri yaradılmışdır.[39] Azərbaycan Respublikası Prezidentinin ARDNŞ-nin strukturunun təkmilləşdirilməsi haqqında 24 yanvar 2003-cü il tarixli 844 saylı Fərmanına əsasən isə Dənizdə və Quruda Neft və Qazçıxarma İstehsalat Birlikləri birləşdirilərək "Azneft" İstehsalat Birliyi yaradılmışdır.[39]

1994-cü ilin fevral ayının 4-də Prezident H.Əliyev «Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənməsinin sürətləndirilməsi haqqında» 56 saylı sərəncam verdi.[5, s.117; 6, s.226; 12, s.17; 30; 48] Bu sərancama əsasən şirkətin funksiyaları yenidən ona qaytarıldı: "ARDNŞ" Qərb şirkətləri Konsorsiumu ilə Müqavilənin hazırlanması, imzalanması və icrası ilə bağlı danışıqları aparmalı idi. Dövlət başçısının 1994-cü il 5 aprel tarixli, 126 saylı fərmanına əsasən ARDNŞ-in idarəetmə strukturunun dəyişilməsi ilə əlaqədar olaraq 1992-ci il 14 noyabr tarixli fərmanı qüvvədən düşdü və ARDNŞ-in Nizamnaməsi yeni redaksiyada təsdiq edildi.[40; 41] Natiq Əliyev şirkətin rəhbəri təyin edildi. 1994-cü ilin mart ayında xarici şirkətlərlə danışıqlar bərpa olundu.[30; 48] ARDNŞ-in aparıcı mütəxəssislərindən ibarət səlahiyyətli bir qrup formalaşdırıldı və bu qrupa görkəmli neft və beynəlalq əlaqələr üzrə mütəxəssislər daxil edildi.[24, 21 dekabr 1999] 1994-cü ilin mayında cənab İlham Əliyev "ARDNŞ"-in I vitse-prezidenti təyin olundu[26, s.51] və o da bu qrupa daxil edildi. Bu qrup üzvləri çoxsaylı analoji beynəlxalq müqavilələri analiz etdi.[21, s.154] 1994-cü il sentyabrın 20-də Bakıdakı «Gülüstan» sarayında Azərbaycan hökuməti və dünyanın 6 ölkəsinin 10 əcnəbi neft şirkətinin daxil olduğu Konsorsium arasında Xəzər dənizinin Azərbaycan sekorundakı "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" yataqlarının birgə kəşfiyyatı, işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında Saziş imzalandı.[8, s.664; 22, s.811-812; 56] Bu saziş

tarixə "Əsrin Müqaviləsi" adı ilə düşmüşdür. Sazişin müddəti 30 il idi və 432,4 kvadrat kilometr ərazini əhatə edirdi.[13, s.213; 25, s.31-32; 51; 52] Bu müqaviləyə əsasən göstərilən 3 yataqdan 511 milyon ton (4 milyard barrel) neft və 55 milyard kubmetr qaz çıxarılması nəzərdə tutulmuşdu. Bu qədər neftin 258 milyon tonu, qazın isə hamısı Azərbaycana çatajaqdır. Ölkənin payı təxminən 80%, bütün iştirakçı şirkətlərin payı isə 20% müəyyən olundu.[3, s.36; 21, s.175-176; 24, 12 oktyabr 1994, 21 sentyabr 1999; 43] Öz növbəsində bu 20% də şirkətlər arasında bölünmüşdü. O zaman Konsorsiuma daxil olan şirkətlərin iştirak payları belə idi: Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) - 20%, Bi-Pi - 17,1267%, AMOKO - 17,01%, LUKoyl - 10%, Pennzoyl - 9,8175%, Yunokal - 9,52%, Statoyl - 8,5633%, MakDermott - 2,45%, Remko - 2,08%, TPAO - 1,75%, Delta-Nimir - 1,68%.[17, s.174-175; 21, s.175-176; 51; 52] Sonradan Konsorsiumun iştirakçılarının tərkibində bəzi dəyişikliklər oldu. Hal-hazırda AÇG Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) iştirak payları: BP (operator - 34,1%), Yunokal (10,2%), ARDNŞ (10%), İNPEKS (10%), Statoyl (8,6%), EksonMobil (8%), TPAO (6,8%), Devon (5,6%), İtoçu (3,9%), Amerada Hess (2,7%).[3, s.103; 21, s.176; 50] Dünyanın ən iri və aparıcı dövlətlərinin neft şirkətlərilə belə bir Sazişin imzalanması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik siyasətinin, uzaqgörənliyinin və siyasi cəsarətinin ifadəsi idi. Saziş demək olar ki, bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və sonradan dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yaratdı. Bununla da Azərbaycan öz qapılarını xarici sərmayələr üçün taybatay açdı. Sonrakı dövrlərdə ARDNŞ, Azərbaycan Respublikası Prezidentinin ona vermiş olduğu səlahiyyətlər çərçivəsində, bu günə kimi xarici neft şirkətləri ilə 27 saziş imzalamışdır ki, bunlardan 15 saziş Xəzərin Azərbaycan sektronu, 12 saziş isə quru sahələrini əhatə edir. [18] Bu sazişlərdə ARDNŞ-nin tərəf müqabilləri dünyanın 21 ölkəsini o cümlədən ABŞ, Kanada, Rusiya, Böyük Britaniya, Fransia, İtaliya, Norveç, Türkiyə, İran, Yaponiya, Çin Koreya ölkələrini təmsil edən 43 şirkətdir. Proqnozlara görə imzalanmış sazişlər çərçivəsində karbohidrogen resurslarının kəşfiyyatına, işlənilməsinə və nəqlinə ümumi sərmayə qoyuluşu 60 mlrd. ABŞ dolları civarında olacaqdır.[18] ARDNŞ-in "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri (CQBK) layihəsində payı 10%, Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsində isə payı 25% təşkil edir.[55]

Hazırda Azərbaycanda neftlə zəngin 57 yataq mövcuddur ki, bunun da 18-i Xəzər dənizinin Azərbaycan sektorunda, qalanı isə qurudadır.[39] Ümumiyyətlə, Xəzər hövzəsi 30 milyard tona yaxın neft, 18-20 trilyon kub metr həcmində qaz ehtiyatına malikdir ki, bu da dünyanın karbohidrogen resurslarının 15%-ni təşkil edir.[36; 39] Xəzər hövzəsinin Azərbaycana aid bölgəsində isə 3-5 milyard ton neft, 5 trilyon kub metr həcmində qaz ehtiyatı mövcuddur. Proqnozlara görə, Azəri-Çıraq-Günəşli layihəsi üzrə neft hasilatının ən yüksək dinamik səviyyəsi 2010-cu ildə olacaq. Belə ki, həmin il neft hasilatı 54,9 milyon tona çatdırılacaq. Şahdəniz layihəsi üzrə isə 2010-cu ildə 2,1 milyon ton kondensat hasil olunacaq.[37; 39]

Hazırda ARDNŞ-də 61700 nəfər, o cümlədən 50 nəfəri elmlər doktoru, 392 nəfəri elmlər namizədi elmi dərəcəsinə malik olan 18400 mühəndis, texnik və mütəxəssis çalışır. ARDNŞ respublikanın neft və neft məhsullarına olan tələbatını ödəmək, daxili tələbdən artıq hissəni isə ixrac etmək imkanına malikdir. Bunu təmin etmək üçün ARDNŞ müvafiq istehsal güclərinə, inkişaf etmiş xidmət sektoruna, böyük elmi və texniki potensiala malikdir. ARDNŞ - də həm quru, həm də dəniz neft yataqlarının kəşfiyyatı, işlənməsi və abadlaşdırılması ilə bağlı bütün məsələləri həll etmək qabiliyyətinə malik yüksək ixtisaslı mühəndis, texnik və fəhlə kadrları vardır.[34, s.8; 39]

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti hüquqi şəxs olub, sahibkarlıq fəaliyyətini həyata keçirən dövlət kommersiya orqanıdır. 2006-cı ilin yanvar ayında, Bakı Neftin Emalı Zavodunun direktoru və Azərbaycan Respublikası Milli Məclisinin üzvü Rövnəq Abdullayev ARDNŞ-in prezidentinin postuna təyin edildi.[44] ARDNŞ-in təşkilati strukturuna "Azneft" İstehsalat Birliyi, "Geofizika və Geologiya" İdarəsi, "Sərmayələr" İdarəsi, "Neft kəmərləri" İdarəsi, H.Əliyev adına Bakı neft emalı zavodu və "Azərneftyağ" neft emalı zavodu, H. Əliyev adına Bakı Dərin Özüllər Zavodu (BDÖZ), "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Təhlükəsizlik" İdarəsi, "Sosial İnkişaf" İdarəsi, "Ekologiya" İdarəsi, "İnformasiya Texnologiyaları və Rabitə" İdarəsi, "Qaz Əməliyyatları" İdarəsi, Xəzər Dəniz Neft Donanması (XDND), "Neftqaztikinti" Tresti, "Kompleks Qazma İşləri" Tresti, "Elmi Tədqiqatlar" İnstitutu və "Neftqazlayihə" İnstitutu daxildir.[35, s.7-11] ARDNŞ və xarici şirkətlərin iştirakı ilə ümumilikdə 47 birgə müəssisə, əməliyyat şirkəti və alyans təsis edilmişdir.[35, s.12-18] Bununla yanaşı şirkət xaricdə sərmayə qoyuluşu sahəsində də uğurla fəaliyyət göstərir. Belə ki, ARDNŞ-in Rumıniya, Avstriya, Türkiyə, Qazaxıstan, İsveçrə, Böyük Britaniya və Gürcüstan da daxil olamaqla dünyanın 7 ölkəsində nümayəndəlikləri açılmışdır.[39[a]]

ARDNŞ ölkəmizin ictimai və mədəni həyatında aparıcı rola malikdir. Şirkət öz fəaliyyətində mədəniyyət, təhsil, səhiyyə və idman sahələrinə, regionların sosial inkişafı və humanitar proqramların həyata keçirilməsinə böyük diqqət ayırır. Hazırda ARDNŞ-in nəzdində 6 mədəniyyət sarayı – Mərdəkan Mədəniyyət Sarayı, Adil İsgəndərov, Səttar Bəhlulzadə, Qurban Abbasov, Əli Əmirov, Vaqif Mustafazadə adına mədəniyyət sarayları, 8 tibb müəssisəsi – Mərkəzi Neftçilər Xəstəxanası, Lənkəran Müalicə-Diaqnostika Mərkəzi, Şirvan Müalicə-Diaqnostika Mərkəzi, Zaqatala Müalicə-Diaqnostika Mərkəzi, Qəbələ Müalicə-Diaqnostika Mərkəzi, Qazax Müalicə-Diaqnostika Mərkəzi, Gəncə Müalicə-Diaqnostika Mərkəzi, Gigiyena və Epidemilogiya Mərkəzi (Şirkətin Sosial İnkişaf İdarəsinin struktur vahidi olaraq) fəaliyyət göstərir. «Neftçi» İdman-Sağlamlıq Mərkəzi (İSM) isə Azərbaycanda bədən tərbiyəsi, idmanın təbliği və inkişafında əhəmiyyətli rol oynayır. ARDNŞ-in sosial inkişaf sahəsindəki fəaliyyətinə şirkətdə çalışan işçilərin sosial rifahının yaxşılaşdırılması məqsədilə qidalanma və içməli su təminatı, mənzillərin və yeni inzibati binaların tikintisi sahəsində görülən işləri, regional sosial sahədəki fəaliyyətinə gəldikdə isə Müalicə-Diaqnostika mərkəzləri və xəstəxanaların, eləcədə təhsil müəssisələrinin tikintisi, abadlıq işləri və su təminatı sahəsində atılan addımları qeyd etmək lazımdır. ARDNŞ eyni zamanda humanitar proqramlar da həyata keçirir. Şirkət öz daxili imkanları hesabına məcburi köçkün olmuş soydaşlarımıza öz diqqət və qayğısını əsirgəmir. Belə ki, şirkətin müəssisə və təşkilatlarının balansında olan yataqxanalarda və digər sosial obyektlərdə müvəqqəti məskunlaşmış 15 minə yaxın məcburi köçkün ailələrinə qayğı göstərilir. Onlardan 3000 nəfərə yaxını şirkətin müəssisələrində müvafiq işlə təmin olunub.[39[b]]

Beləliklə, biz bu nəticəyə gələ bilərik ki, ARDNŞ əsası mərhum prezident Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın Neft Startegiyasının həyata keçirilməsi üçün fəaliyyət göstərmiş və şirkət hal-hazırda da bu strategiyanı uğurla davam etdirir.

### *BİBLİOQRAFİYA*

#### 1. Ədəbiyyatlar:

1."Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək)", I cild, Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə, Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1994. 687 səh.
2.Abbasbəyli A. "Azərbaycanın gələcəyi naminə", Bakı, "Azərnəşr", 2001. 96 səh.
3.Abbasov Ç.M. "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları", Bakı, "Elm", 2005. 252 səh.

4.Abdullazadə F. "Heydər Əliyev. Siyasi portret.", Bakı, "XXI" – Yeni Nəşriyyat Evi, 1998. 114 səh.
5.Atakişiyev M. "Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş", Bakı, "Azərbaycan" nəşriyyatı, 2004. 264 səh.
6.Əliyev H.Ə. "Müstəqilliyimiz əbədidir", II kitab (May, 1994 – Dekabr, 1994), Bakı, "Azərnəşr", 1997. 604 səh.
7.Əliyev M.T. "Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri", Bakı, "Mütərcim", 2001. 764 səh.
8.Həsənov Ə.M. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti (Dərslik)", Bakı, "Şərq-Qərb", 2005. 752 səh.
9.Hüseynova İ. "Müstəqil Azərbaycan dövlətinin qurucusu", Bakı, "Təhsil", 2004. 472 səh.
10.Mehdiyev Ş.F., Zavriyev V.Q. "Azərbaycan neft xəzinəsidir", Bakı, "Azərbaycan Dövlət Neft və Elmi-texniki ədəbiyyat Nəşriyyatı", 1956. 157 səh.
11.Məmmədov İ. "Azərbaycan tarixi", (dərslik), Bakı, "Adiloğlu" nəşriyyatı, 2005. 486 səh.
12.Nəsirov E. "Azərbaycan nefti və beynəlxalq müqavilələr", Bakı, 1999. 104 səh.
13.Qaffarov T.B. "Azərbaycan Respublikası. Əsrə bərabər on il (1991-2001)", Bakı, "Tural-Ə" Nəşriyyat-poliqrafiya mərkəzi, 2001. 325 səh.
14.Qaffarov T.B. "Azərbaycan tarixi. XX əsrin 80-90-cı illəri.", Bakı, "Mütərcim", 1997. 141 səh.
15.Süleymanov M.F. "Eşitdiklərim, Oxuduqlarım, Gördüklərim", Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1987. 320 səh.
16.Tahirzadə Ə. "Prezident Elçibəy", Bakı, "Yeni Müsavat" qəzetinin nəşri, 2001. 420 səh.
17.İbrahimov H. "Əsrin Kontraktı" – Əsas İxrac Boru Kəmərinin reallaşmasına gedən yol" // "Əsrin Müqaviləsi – 10. Azərbaycan böyük inkişaf yollarında" (tarixi-siyasi təhlil), Bakı, "Min bir Mahnı" MMC, 2004. səh.174-176.
18.Yusifzadə X.B. "Azərbaycan neft-qaz sənayesi (Tarixi, mövcud vəziyyət, problemləri və inkişaf perspektivləri)" // "Azərbaycan Neft Sənayesi Tarixinə dair I Beynəlxalq Konfrans"-ın materialları. 7 iyun 1996-cı il, Bakı İdman və Sərgi Kompleksi. Azərbaycan Respublikası, Bakı, 1996. səh.53-61.
19.Majidov A., Isgandarova N., "AZERBAIJAN: THE LAND OF HOPE. Modern Political History of Azerbaijan", Canada, 2004. pp.114.
20.Абасов З.М. «Основные направления формирования внешнеэкономической политики Азербайджана», Баку, «Сабах», 1994. 61 стр.
21.Алиев И. Г. «Каспийская нефть Азербайджана», М.: «Известия», 2003. 712 стр.
22.Гасанов А. «Современные международные отношения и внешняя политика Азербайджана», Баку, «Şərq-Qərb», 2007. 904 стр.
23.Мурадалиева Э.Б. «Кров Земная – Нефть Азербайджана и История», Книга 1.,Баку, «Мутарджим», 2005. 256 стр.

**2. Dövri mətbuat:**

24."Azərbaycan" qəzeti.
25.Fətullayev E. "Neft müqaviləsi ətrafında danışıqlar prosesinin tarixi-siyasi təhlili".// "Qanun" jurnalı, №2, 1996. səh.30-32.
26.Nadirov A., Əliyev Q. "Neft strategiyası uğurla davam etdirilir" // "Dirçəliş – XXI əsr" jurnalı, Mart 2004 №3 (73). səh.51-61.
27"Azerbaijan's Oil History, A Chronology Leading up to the Soviet Era" by Mir Yusif Mir-Babayev // "Azerbaijan İnternationl" magazine, Summer 2002 (10.2), pp.34-40.
28."Azerbaijan's Oil History, Brief Oil Chronology since 1920, Part 2" by Mir-Yusif Mir-Babayev // "Azerbaijan İnternational" magazine, Summer 2003 (11.2), pp.56-63.
29."Chronology of AIOC Oil Contract", "Azerbaijan International" magazine, Winter 1994 (2.4), p.66.

30."The Contract Anticipating the Future", by Natig Aliyev, President of SOCAR, "Azerbaijan International" magazine, Winter 1994 (2.4), p.25.
31."Trailblazer in Pursuit of Oil, The Re-Opening of Azerbaijan to the West" by Anne Kressler, "Azerbaijan International" magazine, Winter 1994 (2.4), pp.34-35.
32.Газета «Зеркало».
33.Газета «Известия».

### 3. Hesabatlar:

34.Azərbaycan Respublikası Dövlət Neft Şirkəti. Fəaliyyəti haqqında Hesabat – 2006", Bakı, 2007. 37 səh.
35."Azərbaycan Respublikası Dövlət Neft Şirkəti. Fəaliyyəti haqqında Hesabat – 2007", Bakı, 2008. 76 səh.
36."Caspian Sea Energy Data, Statistics and Analysis - Oil, Gas, Electricity, Coal", U.S. Energy Information Administration. Last Updated: January 2007. 17 pages. Sayta istinadən: http://www.eia.doe.gov/emeu/cabs/Caspian/pdf.pdf
37."Azerbaijan Energy Data, Statistics and Analysis - Oil, Gas, Electricity, Coal", U.S. Energy Information Administration. Last Updated: November 2007. 14 pages. Sayta istinadən: http://www.eia.doe.gov/emeu/cabs/Azerbaijan/pdf.pdf
38."BP Statistical Review of World Energy June 2008", BP p.l.c. 2008. 45 pages. Sayta istinadən: http://www.bp.com/liveassets/bp_internet/globalbp/globalbp_uk_english/reports_and_publications/statistical_energy_review_2008/STAGING/local_assets/downloads/pdf/statistical_review_of_world_energy_full_review_2008.pdf

### 3. İnetrnet saytları:

39."ARDNŞ haqqında". Sayta istinadən: http://www.socar.gov.az/about-az.html
39[a]. "ARDNŞ-nin xarici ölkələrdəki nümayəndəlikləri". Sayta istinadən: http://socar.az/numayendelikler-az.html
39[b]. "Sosial sahə". Sayta istinadən: http://socar.az/social-az.html
40."ARDNŞ-də struktur islahatları" mövzusunda HÜQUQİ TƏDQİQAT", Azərbaycanın Neft Sənayesi Üzrə İnformasiya və Resurs Mərkəzi. Sayta istinadən: http://himayadar-az.org/tedqiqatlar/02-HUQUQI/002-ARDNS-HTB.htm
41."ARDNŞ-də struktur islahatları" mövzusunda İQTİSADİ TƏDQİQAT", Azərbaycanın Neft Sənayesi Üzrə İnformasiya və Resurs Mərkəzi. Sayta istinadən: http://himayadar-az.org/tedqiqatlar/01-IQTISADI/002-ARDNS-ITB.htm
42.Yusifzadə Xoşbəxt "Azərbaycan neft strategiyası: uğurlar və perspektivlər" // 3-6 iyun 2008-ci il tarixində Bakıda keçirilən 15-ci Beynəlxalq «Xəzər neft, qaz, neftayırma və neft kimyası» sərgi-konfransının 2-ci sessiyasında (iyun 4) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti, Milli Elmlər Akademiyasının akademiki Xoşbəxt Yusifzadənin məruzəsi. Sayta istinadən: http://socar.az/1124-news-view-az.html
43."The Independent Azerbaijan's Oil Policy" by Dr. Nasib Nassibli (Nasibzade), with the participation of Dr. Shahyar Daneshgar. Lecture at the University of California at Berkeley, April 15, 1998. Article from the forthcoming "Oil and Geopolitics in the Caucasus and Central Asia" book. Sayta istinadən:
http://www.zerbaijan.com/azeri/nasibzade1.html
44. "State Oil Company of Azerbaijan Republic". Sayta istinadən:
http://en.wikipedia.org/wiki/State_Oil_Company_of_Azerbaijan_Republic
45.http://www.azer.com/aiweb/categories/magazine/ai102_folder/102_articles/102_oil_chronology.html
46.http://azer.com/aiweb/categories/magazine/ai112_folder/112_articles/112_chronology.html
47.http://www.azer.com/aiweb/categories/magazine/24_folder/24_articles/24_oilchronology.html
48.http://www.azer.com/aiweb/categories/magazine/24_folder/24_articles/24_oilcontract.html

49.http://www.azer.com/aiweb/categories/magazine/24_folder/24_articles/24_remp.html
50.http://www.bp.com/managedlistingsection.do?categoryId=9007993&contentId=7015017
51.http://www.caspenergy.com/32/2005_32_01.html
52.http://www.caspenergy.com/no2rus11.html
53.http://www.ngv.ru/article/aspx?articleID=21658
54.http://www.ngv.ru/magazin/view/hsql?id=3111&mid=120
55.http://www.socar.gov.az/btc-az.html
56.http://subsites.bp.com/caspian/Downloads/ACG/aze/agmt1/PSA-ACG-Az.pdf
57.http://www.anspress.com/nid116125.html
58.http://www.interfax.az/az/index.php?option=com_content&task=view&id=31170&Itemid=9

АГАЕВ Р.М.

**НЕФТЯНАЯ СТРАТЕГИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ГОСУДАРСТВЕННАЯ НЕФТЯНАЯ КОМПАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (ГНКАР) В 1992-2008 ГГ.**

Эта статья посвящена Государственной Нефтяной Компании Азербайджанской Республики (ГНКАР), её созданию и деятельности в 1992-2008-х годах. В статье рассказывается о компании, созданной 13 сентября 1992 года указом президента № 200; о выходе азербайджанской нефти на мировой рынок; о разработке нефтяных месторождений и их добычи. Здесь также говорится о важности переговоров с крупными зарубежными нефтяными компаниями, и в результате этого о заключении договора 20 сентября 1994 года о «Разделении части добычи», вошедшей в историю под названием «Контракта Века». В настоящее время подписано 27 нефтяных соглашений с 43 компаниями, представляющих 21 государство мира. ГНКАР удачно функционирует как во внутренней общественной и экономической жизни государства, так и в сфере инвестировании за границей.

AGHAYEV R.M.

**THE OIL STRATEGY OF AZERBAIJAN REPUBLIC AND STATE OIL COMPANY OF AZERBAIJAN REPUBLIC (SOCAR) IN 1992-2008 YEARS.**

This article is devoted to State Oil Company of Azerbaijan Republic (SOCAR), its creation and activity in 1992-2008 years. In the article it is told about the company, established on September 13, 1992 by the President's Decree № 200, about the Azerbaijan oil, the development of oil fields and oil production. Here it is also discussed the importance of negotiations with foreign oil companies, that ended with the signing of Production Sharing Agreement (PSA) on September 20, 1994. This agreement was called "the Contract of the Century". Since then the general number of the signed agreements has reached 27. The parties of these agreements are 43 companies representing 21 countries of the world. SOCAR successfully functions both in the internal social and economic life of the country and in the sphere of investment abroad.

***Rəyçilər: t.e.n.Ə.Q.Qasımov, t.e.d.L.L.Həsənova.***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu «Azərbaycan Respublikası tarixi» şöbəsinin 24 aprel 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***